**NAXÇIVAN MUXTAR RESPUBLİKASININ**
**NAZİRLƏR KABİNETİ**

# Q Ə R A R

**Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2011-ci il 26 noyabr tarixli 98 nömrəli Qərarı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısı”nda dəyişiklik edilməsi barədə**

“Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin sərəncamında olan “Oksigen İstehsalı Müəssisəsi” Məhdud Məsuliyyətli Cəmiyyətinin Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin tabeliyinə verilməsi və “Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin fəaliyyətinin təkmilləşdirilməsi və “Naxçıvan Muxtar Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi haqqında Əsasnamənin, komitənin strukturunun təsdiq edilməsi və aparatının işçilərinin say həddinin müəyyən edilməsi barədə” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2007-ci il 20 noyabr tarixli 93-III FR nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2023-cü il 22 iyun tarixli 180-VI FR nömrəli Fərmanında dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2024-cü il 31 oktyabr tarixli 4-VII FR nömrəli Fərmanının 4-cü hissəsinə əsasən Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2011-ci il 26 noyabr tarixli 98 nömrəli Qərarı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısı”nın “Digər qurumlar” hissəsinə aşağıdakı məzmunda 7.5-ci bənd əlavə edilsin:

“7.5. “Oksigen İstehsalı Müəssisəsi” Məhdud Məsuliyyətli Cəmiyyəti”.

2. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri** **Ceyhun Cəlilov**

Naxçıvan şəhəri, “6” fevral 2025-ci il

№ 6